- vergi ödəyicisinin kreditoru qarşısında maliyyə öhdəlikləri ləğv edildiyi və ya ödənildiyi halda (qarşılıqlı hesablaşmalar aparıldıqda və digər bu kimi hallarda), öhdəliyin ləğv edildiyi və ya ödənildiyi (əvəzləşdirildiyi) vaxt;
- vergi orqanında uçotda olmayan fiziki şəxslərin güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə və güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə birbaşa və ya dolayısılə edilən ödəmələrindən pul vəsaitinin köçürülməsinə dair ödəmə tapşırığının bank tərəfindən icra edildiyi vaxt.
- Ödəmə mənbəyində vergi tutan vergi ödəyiciləri respublikada fəaliyyətini dayandırdıqda, habelə hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğv edildikdə və ya vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə bəyannamələrin təqdim edilməsi müddətlərdən gec olmamaq şərtilə 30 gün müddətində ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanına bəyannamə verməlidir.

**Nə dəyişdi?**

Ödəmə mənbəyində verginin tutulması öhdəliyinin yaranma vaxtı dəqiqləşdirildi.

Muzdlu işçi kimi cəlb edilməyən fiziki şəxslərə ödənilən maddi yardım, mükafat və təqaüdlərin, habelə vəkil qurumlarının tərkibində fəaliyyət göstərən vəkillərə ödənilən gəlirlərindən tutulan verginin ayrıca dərəcəsi müəyyən edildi.

Güzəştli vergi tutulan ərazilərə, vergi orqanında uçotda olmayan fiziki şəxslərin isə həmin ölkə (ofşor) və ərazilərə köçürmələri ödəmə mənbəyində vergiyə cəlb edilmirdi. Bu ödəmələr üzrə vergi tutulan və vergi tutulmayan əməliyyatların əhatə dairəsi dəqiqləşdirildi.

**Ödəmə mənbəyində tutularaq dövlət büdcəsinə ödənilməli olan vergi barədə ətraflı məlumatla “Muzdlu işlə əlaqədar tutulan gəlir vergisi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqqı. Muzdlu işlə əlaqədar tutulan gəlir vergisi” adlı bukletdən tanış ola bilərsiniz.**

**BAKI — 2022**

DÖVLƏT VERGİ XİDMƏTİ

# Ödəmə mənbəyində verginin tutulması öhdəliyinin yaranma vaxtı dəqiqləşdirildi

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən**

❖ **Hüquqi şəxslər və ya fərdi sahibkarlar tərəfindən**

- Vergi ödəyicisi kimi vergi uçotunda olmadan, VÖEN təqdim edilmədən göstərilən iş və xidmətlərə görə fiziki şəxslərə ödənilən aylıq gəlirin məbləği **2500 manatadək olduqda 14 faiz, 2500 manatdan çox olduqda isə 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi** miqdarında,
- Muzdlu işçi kimi cəlb edilməyən fiziki şəxslərə ödənilən maddi yardım, mükafat və təqaüdlərdən isə ödəmə mənbəyində **14 faiz dərəcə ilə** gəlir vergisi hesablanaraq tutulur və **gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilir.

❖ **Vəkil qurumu tərəfindən** qurumun tərkibində fəaliyyət göstərən vəkillərin vəkillik fəaliyyəti ilə bağlı onlara ödənilən gəlirdən ödəmə mənbəyində **14 faiz dərəcə ilə** gəlir vergisi hesablanaraq tutulur və **növbəti ayın 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilir.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- **Rezidentlərin və qeyri-rezidentlərin respublikadakı daimi nümayəndəliklərinin** güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə birbaşa və ya dolayısılə edilən **ödənişlərdən həmin ödənişləri həyata keçirən şəxslər tərəfindən**,
- **vergi orqanında uçotda olmayan fiziki şəxslərin** yuxarıda qeyd edilən ödənişlərindən isə həmin **ödənişləri həyata keçirən yerli bank, xarici bankın respublikadakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən**
- ödəmə mənbəyində **10 faiz dərəcə ilə** vergi hesablanaraq tutulur və ödəniş həyata keçirilənədək dövlət büdcəsinə köçürülür.
- Qeyd edilən hesablamalar üzrə **"Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"** rüb başa çatdıqdan sonra **növbəti ayın 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilir.

❖ **Aşağıdakı hallarda güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə edilən ödənişlər Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir və həmin gəlirlərdən ödəmə mənbəyində vergi tutulmur:**

- alınmış borclar üzrə borcun əsas məbləği qaytarıldıqda (faizlər istisna olmaqla);
- rezident banklar tərəfindən açılan müxbir hesablara ödənişlər edildikdə;
- ödənilən vəsaitlər ödəniş tarixindən hesaba qaytarıldığı gün daxil olmaqla 1 il müddətində güzəştli vergi tutulan ölkədəki hesabdan ödəyən şəxsin bank hesabına qaytarıldıqda;
- vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən elektron ticarət qaydasında xidmətlər alındıqda;
- vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə şəxsi istehlak məqsədilə mallar (işlər, xidmətlər), o cümlədən daşınar və ya daşınmaz əmlakların alışı ilə bağlı respublikanın hüdudlarından kənarda güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə ödənişlər edildikdə;
- borc qiymətli kağızlarının əldə edilməsi ilə bağlı ödənişlər edildikdə;
- respublikaya qoyulmuş investisiyalar və respublikadakı maliyyə instiutularına yerləşdirilmiş depozitlər üzrə faiz və dividend gəlirləri ödənildikdə;
- güzəştli vergi tutulan ölkələrin və ya ərazilərin rezidentlərinin əməkhaqqı və pensiyaları ödənildikdə;
- səlahiyyətli dövlət orqanlarına rüsumlar və digər ödənişlər ödənildikdə, icazələrin və sertifikatların alınması ilə bağlı ödənişlər edildikdə.

❖ Hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlakın, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi ödəmə mənbəyinə vergiyə cəlb edilmir.

❖ **Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi istisna olmaqla, digər gəlirlərdən ödəmə mənbəyində verginin tutulması öhdəliyinin yaranma vaxtı aşağıdakı qaydada müəyyən edilmişdir:**

- vergi ödəyicisi pul vəsaitini nağd qaydada ödəyirsə, nağd pul vəsaitinin ödənildiyi, nağdsız ödəmə zamanı pul vəsaitinin köçürülməsinə dair ödəmə tapşırığının bank tərəfindən icraya qəbul edildiyi vaxt;